# Erməni yalanlarına növbəti zərbə



***Sentyabrın 27-dən bəri ön cəbhədə döyüşlər gedir, ancaq döyüşlər yalnız ön cəbhədə deyil, eyni zamanda, diplomatik cəbhədə, beynəlxalq əlaqələr sferasında da davamlı mübarizə içindəyik. Azərbaycanın haqlı mübarizəsini, Silahlı Qüvvələrimizin xilaskarlıq missiyasını beynəlxalq aləmdə erməni yalanları və həyasızlığı ilə qaralamağa, gözdən salmağa cəhdlər var. Bu, cənab Prezidentin sözləri ilə desək, dünya erməniliyinin ənənəvi qara piarıdır. Lakin bütün fəaliyyəti yalan, böhtan, iftira, şantaj üzərində qurulmuş beynəlxalq erməni şəbəkəsi, lobbi və diaspor gücü artıq cavablar almağa başlayır və deyəsən, onların hesablamadığı yeni bir mənzərə yaranır...***

Nə üçün belə yazıram? İlk növbədə ona görə ki, biz işğalçı Ermənistanın gücsüz olduğunu bilirdik. Bilirdik ki, onlar hərbi güclərinə, insan resurslarına, iqtisadi imkanlarına deyil, məhz xarici havadarlarına, qara piara arxalanır. Amma budur, artıq 20 gündür aktiv döyüşlər gedir, Ermənistan bütün cəbhələrdə geriləyir, çox ciddi itkilər verir, gözlədikləri dəstəyi ala bilmir – bir sözlə, düşmən ölkə pərişan, pəjmürdə hala düşüb. Telefondan asılı qalan guya "demokrat" Paşinyana, "Soros uşağı" olması da, arxalandığı beynəlxalq erməni şəbəkəsi də – heç kim və heç nə kömək edə bilmir. Çünki Azərbaycan bütün cəbhələrdə öz haqq və ədalətli mövqeyindən geri durmur. Çünki Azərbaycan hücum diplomatiyası həyata keçirir. ATƏT-in sülh yaratmayan sülhyaratma missiyası, Minsk qrupunun həmsədrləri hər nə qədər cəhd etsələr də, Azərbaycanın haqqı nəinki üzülmədi, nazilmədi, əksinə, gücləndi, möhkəmləndi!

Bizim gözümüzdə tük axtaranları öz gözlərindəki tiri görməyə dəvət etmişik. Onlardan bizə ittihamları üçün dəlil istəmişik, sübut tələb etmişik. Yoxdur belə dəlil-sübut! Əvəzində bizə irad tutanların öz ölkələrinin televiziya kanallarında, onların anladığı dildə münasibətimiz, mövqeyimiz tirajlanır. Hiss olunur ki, "ittihamların" yerini anlayış göstərmə mərhələsi tutmaqdadır. Bizim onsuz da elə də müşkül tələbimiz, istəyimiz yoxdur. Çox sadə bir istəkdir bu: Ədalətli olun! Bu qədər yetər!

Əlbəttə, qeyd olunan planlarda məhz dövlət başçımızın titanik səyləri, dünya liderlərinin zəngləri zamanı və nüfuzlu xarici TV müxbirlərinin müsahibələr vaxtı verdiyi mükəmməl cavablar dünya erməniliyini sarsıdır. Yalan-yanlışlardan qulağı doymuş dünya ictimaiyyəti aydan arı, sudan duru mövqe ilə tanış olduqca, müqayisə aparır, doğrunu tapır. Artıq birtərəfli təbliğat sıradan çıxarılıb, deyəcəkləri varsa, eşidəcəkləri də var! Bu mübarizədə uduzan biz ola bilmərik. Çünki haqlıyıq. Çünki öncələrdən fərqli olaraq, haqlı olduğumuzu duyura, tirajlaya bilirik. Çünki hərb meydanındakı qüdrətimiz çox şeyi dəyişib, bizi dinləmək, bizi danışdırmaq, bizdən fikir almaq ehtiyacı yaranıb. Çünki bizim lider dünyanın istənilən lideri ilə ən yüksək diplomatik danışıqlar aparmaq, jurnalistlərin elanolunmamış müharibə ilə bağlı ən çətin suallarına ən aydın, doğru cavablar vermək istedadına, imkanına sahib ikən, düşmən ölkənin baş naziri öz səbatsızlığı ilə gülüş hədəfi olmaqdan qurtula bilmir.

Bizim heç bir platformada çəkinəcəyimiz yoxdur. Buyursun, istənilən media orqanı bərabər şərait yaratsın, Prezident Əliyev də danışsın, baş nazir Paşinyan da. Nəticə gün kimi aydındır. Bu, xeyirlə şərin, haqla nahaqqın qarşılaşması olacaq. Təbii, dediklərimiz yalnız gələcəklə bağlı ehtimal deyil, əvvəllər bir neçə dəfə əyani və qiyabi debatda iki ölkə rəhbərinin intellektual imkanları arasındakı kəskin fərqi görmüşük. Dediklərimizin nə qədər doğru olduğunu çox da uzağa getmədən, elə dünən, iki liderin "RİA Novosti" agentliyinin (Dmitri Kiselyovun) suallarına verdiyi cavabda da aydın şəkildə görmək mümkündür. Yalnız şəri danışdıranda, şərə üstünlük tanınanda, əlbəttə, bu ədalətli olmur və belə beynəlxalq media dələduzluğu ilə haqq-nahaqqı seçmək, ədaləti üzə çıxarmaq mümkün deyil.

Beləliklə, cənab Prezidentin bir neçə ingilisdilli, rusdilli və başqa televiziya kanallarına hadisə kimi müsahibələrindən sonra, "France 24"ün də müsahibə üçün müraciət etməsi və verilən cavablar, ən azı, iki planda önəm daşıyır:1– Biz öz həqiqətlərimizi tirajlamış olduq.
2 – Fransa ictimaiyyəti doğrularla tanış oldu.

Bura, Fransa adının avtomatik olaraq haqsızlıq, ədalətsizliklə assosiasiya olunmasının qismən azalma ehtimalını da əlavə etmək olardı... Amma "Franse 24" jurnalistinin suallarının qoyuluşu o azalma ehtimalını sual altına alırdı:
"...Lakin Azərbaycan da atəşi davam etdirib, elə deyilmi? Dünya Dağlıq Qarabağdakı Xankəndidə mülki şəxslərin artilleriya atəşinə tutulması görüntülərini görüb", "Siz deyirsiniz ki, atəşkəs müəyyən olunandan sonra Azərbaycan tərəfindən heç bir zərbə endirilməmişdir? Hətta hərbi hədəflərə də?", "Bəs, Dağlıq Qarabağdakı kilsələrin bombardman edilməsi görüntüləri barədə nə deyə bilərsiniz? Əlbəttə ki, onlar hərbi hədəflər deyil", "Siz Türkiyə istehsalı olan neçə dron cəlb etmisiniz?" və s. Necə deyərlər, bu, "ev tapşırığı" suallar "France 24"-ün ideoloji-siyasi yönümünü gizlətməyə imkan vermir. Əlbəttə, bu suallardan tərəfsizlik ovqatı görünmür, ancaq əsas olan suallar deyil, cavablardır. Yəqin heç təsadüf deyil ki, hətta türk dronlarının sayını belə öyrənmək istəyən "France 24"-ə cənab İlham Əliyevin cavabı qardaş Türkiyədə manşet oldu:"Hədəflərimizə çatmağımız üçün kifayət qədər varımızdır. Zənnimcə, məni başa düşə bilərsiniz ki, bu, mənim açıqlamamağa üstünlük verdiyim məlumatdır".

Prezidentin "France 24"-ə, eləcə də son günlər digər nüfuzlu dünya TV-lərinə verdiyi müsahibələr həm videomaterial şəklində, həm müsahibənin mətni Azərbaycan mediasında yetərincə işıqlandırılıb və hər kəs onlarla tanış ola bilər. Heç şübhəsiz, dövlət başçısının "France 24"-ə müsahibəsi erməni yalanlarına vurulan növbəti zərbə, erməni yalanlarının təsiri altında olanların doğrularla tanış olması, həqiqətlərlərimizin yeni ünvanlar qazanması baxımından çox önəmlidir. Elə bilirəm, 27 sentyabrdan başlanan ən yeni dönəm tariximizin gələcək araşdırıcılarının müraciət edəcəyi qaynaqlar sırasında cənab Prezidentin göstərilən tarixdən bu yana xarici televiziya kanallarına verdiyi müsahibələr, o cümlədən "France 24"-ə müsahibə özünəməxsus yer tutacaq.

**İşimiz haqq işidir!**

***Qənirə PAŞAYEVA,***
***Milli Məclisin Mədəniyyət komitəsinin sədri***

Xalq qəzeti 2020.- 20 oktyabr.- S.12.